## *Müharibə və ya 1990-cı ilin 20 Yanvar hadisələri ilə əlaqədar əlilliyi olan şəxslərə* Azərbaycan Respublikası Prezidentinin təqaüdünün təsis edilməsi haqqında[1]

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyü uğrunda döyüşlərdə, cəbhədə olmaqla və ya döyüş əməliyyatları aparılan ölkələrdə beynəlmiləl borcu yerinə yetirməklə bağlı, həmçinin hərbi xidmət vəzifələrini (xidməti vəzifələri) yerinə yetirərkən*, habelə 1990-cı ilin 20 Yanvar hadisələri ilə əlaqədar* sağlamlıqlarını itirərək *əlilliyi müəyyən edilmiş* şəxslərin mərdlik və şücaətlərini qeyd edərək onların sosial müdafiəsini gücləndirmək və onlara dövlət qayğısını artırmaq məqsədi ilə **qərara alıram:**[2]

1. "*Müharibə və ya 1990-cı ilin 20 Yanvar hadisələri ilə əlaqədar əlilliyi olan şəxslərə* Azərbaycan Respublikası Prezidentinin təqaüdü" təsis edilsin və onun aylıq məbləği aşağıdakı kimi müəyyən edilsin:[3]

*1.1. I dərəcə əlilliyi olan şəxslərə – 400 manat;*[4]

*1.2. II dərəcə əlilliyi olan şəxslərə – 350 manat;* [5]

*1.3. III dərəcə əlilliyi olan şəxslərə – 300 manat.* [6]

*2. Müəyyən edilsin ki:* [7]

*2.1. bu Fərmanın 1-ci hissəsi ilə təsis edilən Azərbaycan Respublikası Prezidentinin təqaüdü dövlət büdcəsində Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə nəzərdə tutulmuş xərclər hesabına həmin nazirlik tərəfindən ödənilir;*[8]

*2.2. bu Fərmanın 1-ci hissəsi ilə müəyyən edilən Azərbaycan Respublikası Prezidentinin təqaüdlərindən yalnız biri – daha yüksəyi verilir.*

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

4. Bu Fərman 2008-ci il sentyabrın 1-dən qüvvəyə minir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 9 sentyabr 2008-ci il
823

### İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI

1. 28 avqust 2013-cü il tarixli **952** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti 29 avqust 2013-cü il, 188, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013-cü il, 08, maddə 895**)
2. 17 mart 2014-cü il tarixli **129** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 18 mart 2014-cü il, 57, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 3, maddə 249**)
3. 19 yanvar 2016-cı il tarixli **746** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 20 yanvar 2016-cı il, 13, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 01, maddə 68**)
4. 15 may 2018-ci il tarixli **69** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 5, maddə 937**)
5. 15 aprel 2019-cu il tarixli **639** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 16 aprel 2019-cu il, 81, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 4, maddə 639**)
6. 30 dekabr 2020-ci il tarixli **1230** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 6 yanvar 2021-ci il, 1, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 12, I kitab, maddə 1492**)

### FƏRMANA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

---

[1] 15 aprel 2019-cu il tarixli **639** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 16 aprel 2019-cu il, 81, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 4, maddə 639**) ilə adında və 1-ci hissəsində "**Müharibə əlillərinə**" sözləri "**Müharibə və ya 1990-cı ilin 20 Yanvar hadisələri ilə əlaqədar əlilliyi olan şəxslərə**" sözləri ilə əvəz edilmişdir.

-

[2] 15 aprel 2019-cu il tarixli **639** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 16 aprel 2019-cu il, 81, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 4, maddə 639**) ilə preambulada "**yetirərkən**" sözündən sonra "**, habelə 1990-cı ilin 20 Yanvar hadisələri ilə əlaqədar**" sözləri əlavə edilmişdir və **"əlil olan**" sözləri **"əlilliyi müəyyən edilmiş**" sözləri ilə əvəz edilmişdir.

-

[3] 28 avqust 2013-cü il tarixli **952** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti 29 avqust 2013-cü il, 188, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013-cü il, 08, maddə 895**) ilə 1-ci hissəsinin birinci-üçüncü bəndləri yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:
~~I qrup müharibə əlillərinə – 90 manat~~
~~II qrup müharibə əlillərinə – 70 manat~~
~~III qrup müharibə əlillərinə – 50 manat.~~

17 mart 2014-cü il tarixli **129** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 18 mart 2014-cü il, 57 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 3, maddə 249**) ilə 1-ci hissəsinin birinci-üçüncü bəndləri yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:
~~I qrup müharibə əlillərinə - 110 manat~~
~~II qrup müharibə əlillərinə - 85 manat~~
~~III qrup müharibə əlillərinə - 60 manat~~

19 yanvar 2016-cı il tarixli **746** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 20 yanvar 2016-cı il, 13, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 01, maddə 68**) ilə 1-ci hissəsinin birinci-üçüncü bəndləri yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:
~~I qrup müharibə əlillərinə - 150 manat~~
~~II qrup müharibə əlillərinə - 130 manat~~
~~III qrup müharibə əlillərinə - 100 manat.~~

15 may 2018-ci il tarixli **69** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 5, maddə 937**) ilə 1.1-1.3-cü bəndləri yeni redaksiyada verilmişdir.

əvvəlki redaksiyada deyilirdi:
~~*1.1. I qrup əlillərə – 165 manat*~~
~~*1.2. II qrup əlillərə – 143 manat*~~
~~*1.3. III qrup əlillərə – 110 manat.*~~

15 aprel 2019-cu il tarixli **639** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 16 aprel 2019-cu il, 81, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 4, maddə 639**) ilə 1.1-1.3-cü bəndləri yeni redaksiyada verilmişdir.

əvvəlki redaksiyada deyilirdi:
~~*1.1. I qrup əlillərə - 182 manat;*~~
~~*1.2 II qrup əlillərə - 158 manat;*~~
~~*1.3. III qrup əlillərə - 121 manat.*~~

-

[4] 30 dekabr 2020-ci il tarixli **1230** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 6 yanvar 2021-ci il, 1, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 12, I kitab, maddə 1492**) ilə 1.1-ci bənddə "**250**" rəqəmləri "**400**" rəqəmləri ilə əvəz edilmişdir.

[5] 30 dekabr 2020-ci il tarixli **1230** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 6 yanvar 2021-ci il, 1, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 12, I kitab, maddə 1492**) ilə 1.2-ci bənddə "**230**" rəqəmləri "**350**" rəqəmləri ilə əvəz edilmişdir.

[6] 30 dekabr 2020-ci il tarixli **1230** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 6 yanvar 2021-ci il, 1, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 12, I kitab, maddə 1492**) ilə 1.3-cü bənddə "**210**" rəqəmləri "**300**" rəqəmləri ilə əvəz edilmişdir.

[7] 15 aprel 2019-cu il tarixli **639** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 16 aprel 2019-cu il, 81, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 4, maddə 639**) ilə 2-ci hissə yeni redaksiyada verilmişdir.

əvvəlki redaksiyada deyilirdi:
~~2. Müəyyən edilsin ki, bu Fərmanın 1-ci bəndi ilə təsis edilən təqaüd dövlət büdcəsində Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə nəzərdə tutulmuş xərclər hesabına həmin nazirlik tərəfindən ödənilir.~~

-

[8] 30 dekabr 2020-ci il tarixli **1230** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 6 yanvar 2021-ci il, 1, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 12, I kitab, maddə 1492**) ilə 2.1-ci bəndə "**təsis edilən**" sözlərindən sonra "**Azərbaycan Respublikası Prezidentinin**" sözləri əlavə edilmişdir və həmin bənddə "**ödəyir**" sözü "**tərəfindən ödənilir**" sözləri ilə əvəz edilmişdir.